# Çinlə ticarət əlaqələri yaratmaq istəyən sahibkarlar nələrə fikir verməlidirlər?

## Arayış

AZƏRBAYCAN RESPUBLİKASININ ÇİN XALQ RESPUBLİKASINDAKI SƏFİRLİYİNDƏ TİCARƏT NÜMAYƏNDƏSİ VƏ ONUN APARATI

# ÖN SÖZ

Son illər Azərbaycan və Çin arasında iqtisadi münasibətlər genişlənir, iki ölkə arasında olan ticarət dövriyyəsi ilbəil artır. Bunun nəticəsi kimi Azərbaycan şirkətlərinin və iş adamlarının Çin ilə həm idxal, həm də ixrac əməliyyatlarının sayı artır. Təbii olaraq bu əməliyyatların sayı artdığına görə, şirkətlərimiz bəzən müəyyən problemlərlə də üzləşə bilərlər.

Belə problemlərlə üzləşməmək üçün işgüzar əlaqələr qurulmamışdan öncə qarşı tərəf lazımı qədər araşdırılmalı, imzalanan müqavilələr düzgün tərtib edilməlidir. Şirkətlərimiz bəzən tanımadıqları şəxslərə böyük məbləğ köçürürlər, qarşı tərəf isə bu məbləği aldıqdan sonra, məhsulları göndərmir və sonra onlarla əlaqə qurmaq mümkün olmur. Bundan əlavə alınan məhsullar Çindən göndərilməmişdən öncə şirkətlərimiz tərəfindən inspeksiyadan keçirilmir və mallar Azərbaycana çatdıqdan sonra, keyfiyyətində problemlər aşkar olunur. Dil baryeri və biznes yanaşmasında fərqliliklər olduğuna görə də müəyyən problemlər yarana bilir. Bütün bunların nəticəsində şirkətlərimizə və iş adamlarımıza ciddi maddi zərər dəyir. Halbuki qarşı tərəflə iş düzgün qurulacağı təqdirdə, bütün bu cür neqativ halların qarşısını almaq və riskləri minimuma endirmək mümkündür.



Şirkət və iş adamlarımızın Çindən edilən idxal əməliyyatları zamanı yuxarıda qeyd olunan problemlərlə üzləşməmələri üçün Azərbaycanın Çindəki Ticarət Nümayəndəsi Aparatı tərəfindən bir sıra təkliflər hazırlanmışdır.

Təkliflər aşağıdakı kimidir:

# Şirkətin araşdırılması

1

Şirkətlə tanış olduqdan sonra, şirkətin fəaliyyətinin əsaslı şəkildə yoxlanılması. Qarşı tərəfin biznes lisenziyası sürətinin istənilməsi; İnternet üzərindən şirkət haqqında məlumatın toplanılması.

Əlaqə yaratdığınız şəxsin həmin şirkətin əməkdaşı olub olmamasının yoxlanılması.

# Şirkətə yerində baxış keçirmək

2

Böyük məbləğdə müqavilənin imzalanacağı təqdirdə, Çinə səfər edib, tərəfdaşın ofisi, istehsalat sahəsi və ambarı ilə yerində tanış olmaq;

Əgər müəyyən səbəblərdən Çinə səfər etmək imkanı yoxdursa, məhsulların yoxlanılması və inspeksiyası ilə məşğul olan şirkətlərin xidmətindən faydalanmaq olar;

3

# Sifarişin düzgün verilməsi

Satın almaq istədiyiniz məhsullara bir neçə şirkətdən təklif alınması önəmlidir. Hər hansı təklif ortalama qiymətdən çox aşağıdırsa, nəzərə alın ki, ya məhsul keyfiyyətsizdir, ya da ki, təklif edən şirkətin niyyəti xoş deyil. Sifariş tam aydın şəkildə tələbinizə uyğun olaraq yazılı şəkildə verilməlidir. Bütün xırda detallar qarşı tərəfə əvvəlcədən bildirilib razılaşdırılmalı və müqaviləyə əlavə olunmalıdır. Alıcıya istehsalçı tərəfindən veriləcək lazımı sənədlərin siyahısı müqavilədə göstərilməlidir. Sifariş verilmədən əvvəl nümunə istənilməlidir.

# Alibaba elektron ticarət platforması

4

Şirkət Çinin məşhur "Alibaba" elektron ticarət platforması ilə tapılıbsa, bu platformanın "ticarət təhlükəsizliyi" (trade assurance) xidmətindən istifadə edilməsi. Bu xidmət tam pulsuz əsasda "Alibaba" tərəfindən təklif edilir. Bu xidmətdən istifadə etdiyiniz halda, məhsulu almamışdan öncə, ödədiyiniz pul üçüncü tərəfin hesabında olur və yalnız siz məhsulların keyfiyyətinin yerində olduğunu təsdiqləyəndən sonra, vəsait satıcının hesabına oturur. Beləliklə, üçüncü tərəf həm alıcı, həm də satıcının öz öhdəliklərini yerinə yetirməklə əməliyyatın daha təhlükəsiz olmasına kömək edir.

# Alibaba elektron ticarət platforması




Bundan əlavə əməkdaşlıq edilən şirkətin "Alibaba" elektron ticarət platformasında "Yoxlanılmış Təchizatçı" (Verified Supplier) olmasına diqqət etmək lazımdır. Bu cür şirkətlərlə əməkdaşlıq daha etibarlıdır. "Yoxlanılmı Təchizatçılar" müstəqil üçüncü təşkilatlar tərəfindən qiymətləndirilmiş, sertifikatlaşdırılmış və digər xüsusiyyətlər əsasında öz biznes profillərinə, istehsal imkanlarına və idarəetmə sistemlərinə malik olurlar. Əsas sertifikatlaşdırma, məhsul sertifikatı, keyfiyyət təminatı, müvafiq sənədlərin olması xüsusiyyətlərinə uyğun olaraq yoxlanılırlar.

# MÜQAVİLƏ

# 5



9. Insurance. The Contractor will carry liability
insurance, if warranted) relative to any service
Committee.
10. Assignment. The
Agreement, or delegate the
the prior written consent of the
SIGNATURE

# A - Bütün danışıqları yazılı şəkildə aparmaq

Əldə olunan razılıqların imzalanacaq müqavilədə tam şəkildə öz əksini tapması; Tələb olunacaq ixrac sənədlərinin siyahısının müqavilədə qeyd edilməsi. Əldə olunan məhsulların hansı nəqliyyat vasitəsi ilə daşınması və daşınma zamanı xərclərin kimin tərəfindən qarşılanacağı (INCOTERMS) müəyyənləşdirilməlidir.

# B

Sifariş edilən məhsulların siyahısı detallı şəkildə və razılaşdırılan qiymət (INCOTERMS) əsasında müqavilədə qeyd edilməlidir. Sonunda qəbul edəcəyiniz məhsullun nümunəyə tam uyğun olması müqavilədə bildirilməlidir.

# C - Müqavilədə "Mübahisələrin həlli" maddəsinin yer alması.

Müqavilədə mübahisənin danışıq yolu ilə həll etmək mümkün olmayacağı təqdirdə, bu mübahisəyə Çin Beynəlxalq İqtisadi və Ticarət Arbitraj Komissiyasında (China International Economic and Trade Arbitration Comission - CIETAC) baxılacağının qeyd edilməsi. CIETAC şirkətlər arasında beynəlxalq ticarət mübahisələrinin həllində önəmli rol oynayır. Əməkdaşlıq zamanı şirkətlər arasında yaranan mübahisələrin həlli və verilən qərarların icrası Çin Milli Məhkəmələri ilə müqayisədə CIETAC vasitəsi ilə daha tez və effektiv şəkildə həll olunur. Nəzərə alsaq ki, Azərbaycan da "Arbitraj qərarlarının tanınması və icraedilməsi ilə bağlı Nyu-York Konvensiyası"na qoşulub. Çindən məhsul alan Azərbaycan şirkətlərinə məsləhət görərdik ki, qarşı tərəflə müqavilə imzaladıqları zaman yarana biləcək mübahisələri həll edəcək qurum kimi məhz CIETAC qeyd edilsin;

# D

Ödəniş şərtləri, məhsulun istehsalını və ya göndərilməsi gecikəcəyi təqdirdə satıcı tərəfindən alıcıya ödəniləcək kompensasiyanın şərtləri müqavilədə göstərilməlidir. Əlavə olaraq vəsaiti köçürəcəyiniz şirkətin bank hesabı müqaviləni imzalayacaq şirkətlə eyni olmalıdır. Eyni olmayacağı təqdirdə, satıcıdan izah istənilməli və bu məqam müqavilədə əks olunmalıdır. Bəzən məhsulu istehsal edən şirkətlə, ixrac edən şirkət eyni olmaya bilər, bu normal haldır. Bu halda vəsaitin köçürüləcəyi şirkət müqavilədə qeyd olunmalıdır.

# E - Ödənişin hansı şərtlər ilə həyata keçirilməsi

Əsasən ilkin ödəniş 30% əvvəlcədən həyata keçirilir, məhsul hazır olduqdan və inspeksiya keçirildikdən sonra qalan 70% ödənilir və məhsul nəqliyyat şirkətinə təhvil verilir. Bir başqa variant, 30% ilkin ödəniş edilir, yerdə qalan məbləğ sifariş yola düşdükdən sonra "Bill of Lading" və başqa ixrac sənədləri qarşılığında satıcının hesabına köçürülür.

# F

Razılıq əldə olunandan sonra qarşı tərəflə müqavilənin imzalanması. Müqaviləyə vurulan möhür, müqavilədə satıcı qismində göstərilən şirkətin adını özündə əks etdirməlidir. Ehtimal varki möhürdə şirkətin adı Çin dilində yazılıb, o zaman müqavilədə satıcı qismində qeyd olunan şirkətin adı ingilis dilində, həmçinin çin dilində qeyd edilsin.

6

# Sifariş edilən malların yoxlanılması

Alınan məhsullar Çindən göndərilməmişdən öncə, şirkətlərimiz və iş adamlarımız tərəfindən Çinə səfər edilərək, inspeksiyadan keçirilməsi vacibdir. Əgər müəyyən səbəblərdən Çinə səfər etmək imkanı yoxdursa, məhsulların yoxlanılması və inspeksiyası ilə məşğul olan şirkətlərin xidmətindən faydalanmaq olar;

# Yük sığortası

7

Sifariş edilən malların daşınması zamanı baş verə biləcək hadisələrdən sığortalanması. Daşınma zamanı yarana biləcək problemlər satıcı tərəfindən həll oluna bilmədiyi üçün, məhsulların sığortalanması vacibdir. Azərbaycanda fəaliyyət göstərən bir çox sığorta şirkəti tərəfindən bu xidmət təklif olunur.

8

# Malların qəbulu

Alıcı malları Azərbaycanda qəbul etdikdən sonra baxış keçirməli və hər hansı bir uyğunsuzluq aşkar edildikdə tez bir zamanda, satıcını əsaslı şəkildə məlumatlandırmalıdır. Yaxşı olardı ki, məhsulların qəbulunda video və şəkillər çəkilsin. Keyfiyyət problemi ortaya çıxdıqda istehsalçılar ilk növbədə şəkil və videoların təqdim olunmasını istəyirlər.

Ümumiyyətlə, Çin şirkətləri bütövlükdə peşəkar, müqavilə şərtlərinə riayət edən, müştərilərinə dəyər verən və yaranan hər hansı problemin aradan qaldırılmasında maraqlıdırlar. Qeyd etdiyimiz kimi bəzən dil və iş aparma prinsiplərində fərqliliklər xoşagəlməz hallar yarada bilər. Bundan ötrü bütün məqamlar əvvəlcədən danışıq yolu ilə razılışdırılmalı və müqavilədə öz əksini tapmalıdır. Hər hansı bir problem ortaya çıxarsa, tərəflər bu problemləri öz aralarında həll etməyə çalışmalıdır. İstənilən halda Çin tərəfi məsələnin həllində maraqlıdır və müştərini itirmək istəmir. Danışıqlar nəticə vermədiyi halda, Azərbaycanın Çindəki Ticarət Nümayəndəsi Aparatı şirkət və iş adamlarına dəstək göstərməyə hazırdır. Sonuncu çıxış yolu məhkəməyə və ya yuxarıda qeyd etdiyimiz Çin Beynəlxalq İqtisadi və Ticarət Arbitraj Komissiyasına müraciət etməkdir.

Bütün dünyada olduğu kimi Çində də bəzən fırıldaqçı şəxslər iş adamlarımızın etibarından sui-istifadə edərək, onları aldadıb vəsaitlərini mənimsəyirlər. Bu halda dərhal Çində hüquq-mühafizə orqanlarına şikayət etmək lazımdır. Bunu etmək üçün aldadılan sahibkar şikayəti Çində polis bölməsinə gedərək özü etməlidir və müraciət zamanı mütləq şəkildə təsdiqedici sənədlər və ən azından qarşı tərəfin şəxsiyyət vəsiqəsinin surəti olmalıdır. Aldadan şəxsin Çin dilində ad-soyadı və yaşayış yeri bilinməlidir. Ümumiyyətlə, bü cür hallar ilə rastlaşmamaq üçün, internet vasitəsi ilə tanış olduğunuz və fəaliyyəti haqqında yaxından məlumatınız olmayan şəxslərə, şirkətlərə nağd və ya başqa bir formada pul ödənilməkdən çəkinilməlidir. Yalnız yuxarıda qeyd olunan şərtlərə cavab verən şirkətlərə ödəniş edilməsi məsləhət görülür.

## AZƏRBAYCAN RESPUBLİKASININ ÇİN XALQ RESPUBLİKASINDAKI SƏFİRLİYİNDƏ TİCARƏT NÜMAYƏNDƏSİ VƏ ONUN APARATI


**TEL:**
(+86 10) 659 20 300

**EMAIL:**
china.tro@economy.gov.az


# Təşəkkür edirik!



PEKİN, ÇİN